# VAQİF BƏHMƏNLİ



## POEZİYA 2

Seçilmiş şeirlər və poemalar

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI
AVRASİYA PRESS
2006

### *10. FÜZULİNİN HEYKƏLİ ÖNÜNDƏ*

Nə olub sənə?
Bu boyda fikir,
bu boyda kədər
olmaz axı.
Bu boyda əzabla
cəzalandırmazlar
Heç bir günahı.
Axşam fikir,
Səhər fikir.
Hardan tapışıb səninlə
bu zəhrimar fikir
bu zəhər fikir?..
Sənin anan olubmu, Füzuli?
Görübmü sən düşünəndə,
Görübmü sən əzab çəkəndə?



Dərdin nədir, Füzuli?
Sevgidəndi?
Sevgi nədir ki?
XX əsrdə doğulsaydın?
(əlimin içi kimi bilirəm)
bu qədər əzab çəkməzdin,
bu qədər sızlamazdın,
bu qədər
göz yaşı tökməzdin
bir qızdan ötəri.
Azdramada
"Hamlet"ə baxan
ağıllı tamaşaçı kimi
çıxıb durmusan küçədə –
fikirləşirsən
gündüz də, gecə də.
Leyliylə Məcnun da
düşüb ayaqlarına,
qələmindən imdad diləyirlər ki,
qovuşdurasan onları.
Yalvarırlar sənə
gileyli-gileyli.
Füzuli neyləsin, bacım?
Füzuli neyləsin, qardaşım?
Zamana yalvar, Məcnun,
Zamana yalvar, Leyli...

*1976*

## FÜZULİ

Hücrəsi dünyanın ən aydın evi,
Yanar sinəsindən nur aldı onun.
Dünyanın ən uca dağı Füzuli –
Xoşbəxtlər dibində yer aldı onun.

Müqəddəs sularda üzdü Füzuli –
Tanrının yerdəki sayəsidir o.
Ən acı əzaba dözdü Füzuli,
Ən şirin kədərin yiyəsidir o.

*1976*

## FÜZULİ TƏK

Füzuliyə yaraşan sevgi gəzdim dünyada,
Dedim ola bir Füzuli kədərim.
Füzuli tək alışaydım min oda
Füzuli tək seviləydim, sevəydim...

*1976*